1_Layout 1 15.08.2022 10:50 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 16 (630)

16 avqust 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SARSILMAZ QARDAŞLIQ NÜMUNƏSİ

**"Azərbaycan" qəzetinin müxbiri Əsmər Qardaşxanovanın müəllifi olduğu "Sarsılmaz qardaşlıq nümunəsi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu tarixi köklərə əsaslanır. Bu qardaşlığı, səmimi münasibətləri 44 günlük Vətən müharibəsində də gördük. Həmin müddətdə Türkiyə Azərbaycana mənəvi dəstəyini əsirgəməyərək, haqq səsimizin dünyaya çatdırılmasında sonadək yanımızda oldu.

Müharibədən sonra Azadlıq meydanında keçirilən təntənəli parad, 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması qardaşlığın bariz təcəssümü idi. Bununla iki qardaş ölkə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəldi.



### "Azərbaycan bizim dostumuz, can qardaşımızdır"

Bu gün elə bir sahə yoxdur ki, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq, sıx əlaqələr olmasın. Ölkə prezidentlərinin də tez-tez qarşılıqlı səfərləri, mühüm beynəlxalq tədbirlərdə birgə iştirakı əsl qardaşlıq nümunəsidir.

Avqustun 9-da isə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə səfər çərçivəsində Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak etdilər. Dövlət başçıları arasında görüş də keçirildi. Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Türkiyə Prezidenti Qarabağdakı son hadisələrlə əlaqədar bir daha qardaş ölkənin dəstəyini ifadə edərək şəhidlərlə bağlı başsağlığı verdi. Görüşdə bölgədə postmünaqişə dövrü ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi, enerji, nəqliyyat və hərbi sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, Azərbaycan və Türkiyə arasındakı münasibətlərin qardaşlığa, dostluğa dayandığını yalnız dövlət başçıları səviyyəsində deyil, digər rəsmi şəxslərin nümunəsində də görmək mümkündür. Hər kəsin nitqində "Bir millət, iki dövlət" ifadəsi daim eşidilməkdədir.

Avqustun 9-da Ankarada "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda keçirilən XIII Səfirlər Konfransında çıxış edən Türkiyənin milli müdafiə naziri Hulusi Akar hər zamankı kimi iki dövlətin dostluq münasibətlərinə toxunub. "Azərbaycan bizim dostumuz, can qardaşımızdır", - deyən nazir ölkəmizin torpaqlarını işğaldan azad etmək üçün 30 ilə yaxın danışıqlar apardığını xatırladaraq, müharibədən əvvəl Azərbaycan ərazisinin 20 faizinin işğal altında və çox sayda məcburi köçkünün olduğunu bildirib: "Lakin bütün bunlara baxmayaraq, dünya bu hadisəyə biganə yanaşdı. Azərbaycanlı qardaşlarımız sonda "Yetər artıq!" deyərək əməliyyata başladılar. Şükürlər olsun ki, 44 gün davam edən müharibə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi", - deyə Hulusi Akar qeyd edib.

Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan-Türkiyə münasibətləri, müttəfiqliyi dünyada bərabəri olmayan dostluq və qardaşlığın ən gözəl nümunəsidir.

### "Dost da, düşmən də bilsin ki, Can Azərbaycan heç zaman yalnız deyil!"

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu XIII Səfirlər Konfransının rəsmi açılışındakı giriş nitqində Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladaraq deyib ki, müttəfiqlik münasibətlərimiz və qardaşlıq əlaqələrimiz xüsusi xarakter daşıyır. Dünyada bunun bənzəri yoxdur.

Azərbaycana dəstəyini ifadə edən çıxışı ilə diqqət çəkən nazir bir daha vurğulayıb: "Dost da, düşmən də bilsin ki, Can Azərbaycan heç zaman yalnız deyil!"

### Azərbaycan-Türkiyə qardaşlığı gələcək nəsillərə miras olaraq qalacaq

Həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə-Azərbaycan münasibətləri inkişaf etməkdə davam edir. Türkiyə Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpa və yenidənqurma işlərinə hər zaman lazımi dəstəyi göstərməyə hazır olduğunu bildirir.

Tarixə söykənən səmimi münasibətlər illər keçdikcə daha da dərinləşir, iki dövlət arasında ayrılmaz bağlar yaranır. Bu müttəfiqlik digər ölkələrə nümunə olmaqla yanaşı, gələcək nəsillər üçün qardaşlıq və dostluğun simvoludur.

Prezident İlham Əliyevin də dediyi kimi, bu günün reallığı və xalqlarımızın qürur mənbəyi olan nümunəvi Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillərə strateji yol xəritəsi, əbədi və sarsılmaz miras olaraq qalacaq.

---

# VETERAN SİLAHDAŞIMIZ HƏRBİ XİDMƏTDƏN İSTEFAYA BURAXILIB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun 5 avqust 2022-ci il tarixli müvafiq əmri ilə Daxili Qoşunların Baş İdarəsinin Kadrlar İdarəsinin rəisi polkovnik Nəsir Hüseynov "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 157-ci maddəsinin "a" bəndinə (yaşa görə) uyğun olaraq, qoşunların sıralarından istefaya buraxılıb.

Qeyd edək ki, avqustun 5-də 60 yaşı tamam olan polkovnik N.Hüseynov zəngin həyat və xidmət təcrübəsinə malik silahdaşımızdır. O, 1962-ci il avqustun 5-də Cəbrayıl rayonunun İsaxlı kəndində anadan olub. 1980-1982-ci illərdə SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tərkibində müddətli həqiqi hərbi xidmət keçib. 1986-cı ilin oktyabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İslah İşləri İdarəsinin 1 saylı İstintaq təcridxanasında xidmətə qəbul olunub. 1989-1993-cü illərdə SSRİ DİN-in, sonra isə Rusiya Federasiyası DİN-in Ufa Ali Məktəbində hüquqşünas ixtisası üzrə təhsil alıb. 1993-cü ilin mart ayından etibarən Daxili Qoşunların Baş İdarəsində müxtəlif məsul vəzifələrdə xidmət edərək Daxili İşlər Nazirliyi rəhbərliyinin və Daxili Qoşunların komandanlığının etimadını doğruldub.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2005-ci ildə "Hərbi xidmətlərə görə" və 2015-ci ildə "Vətən uğrunda" medalları ilə təltif edilib. Bununla yanaşı, respublikamızın, habelə xarici ölkələrin müxtəlif orden və medallarına, eləcə də Daxili İşlər Nazirliyinin və Daxili Qoşunların döş nişanlarına layiq görülüb. Polkovnik N.Hüseynov Silahlı Qüvvələr və müharibə veteranıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarları ilə silahdaşımıza "hüquq üzrə fəlsəfə doktoru", "dosent" və "professor" elmi adları verilib.

Hərbi xidməti dövründə polkovnik N.Hüseynov qoşunlarda hüquq xidmətinin formalaşdırılmasına, qoşunların kadrlarla komplektləşdirilməsinə, müxtəlif kateqoriyalı kadrların yetişdirilməsinə, şəxsi heyətin təhsili, peşə hazırlığı və ixtisasını artırması istiqamətlərində davamlı inkişafa nail olunmasına, onların hüquqi cəhətdən maarifləndirilməsinə layiqli töhfələr verib.

Avqustun 5-də Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov 60 illik yubileyi və qoşunların sıralarından istefaya buraxılması münasibətilə polkovnik N.Hüseynovu qəbul edib. Cənab komandan yubilyarı təbrik edərək ən xoş arzularını bildirib. O, veteran silahdaşımızın qoşunların tərkibində qüsursuz hərbi xidmətini yüksək qiymətləndirərək, onun keçdiyi şərəfli yolun gənc nəsil zabitlərə dəyərli örnək olduğunu xüsusi vurğulayıb. General-leytenant Ş.Məmmədov hərbi qulluqçunun şəxsi heyət və veteranlar arasında hörmət qazandığını, qoşunların inkişafı naminə öz bilik və bacarığını əsirgəmədiyini, bundan sonra da onun təcrübəsinə ehtiyac olacağını nəzərə çatdırıb.

Polkovnik N.Hüseynov səmimi qəbula, ünvanına söylənilən xoş sözlərə, şəxsinə göstərilən hörmət, diqqət və qayğıya görə daxili qoşunların komandanlığına dərin minnətdarlığını bildirərək, hərbi kollektivdən xoş ovqatla ayrıldığını, qoşunların veteranı olmasından qürur duyduğunu ifadə edib.

Görüşün sonunda yubilyara hədiyyə və gül dəstəsi təqdim olunub, xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# GƏNCLƏR BİZİM GƏLƏCƏYİMİZDİR

Avqustun 12-si Beynəlxalq Gənclər Günüdür. Gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib. Həmin vaxtdan etibarən gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə hər ilin bu günü dünyada geniş qeyd olunur.

Azərbaycan bu sahədə də bir çox ölkəni, o cümlədən, beynəlxalq ictimaiyyəti qabaqlayıb. Belə ki, 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Gənclər Günü təsis edilib.

Ölkəmizdə gənclərə ən yüksək diqqət və qayğı göstərilir, uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb.

Azərbaycanda dövlət gənclər siyasəti gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması, inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Daim Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə 2019-cu ildə təşkil olunan respublika toplantısında iştirakı, dövlətimizin başçısının gənclərin fəaliyyətinə yüksək diqqət yetirməsi, eləcə də Azərbaycan gəncliyinin qarşısında duran əsas hədəf və vəzifələri dəqiq müəyyənləşdirməsi, müxtəlif sahələrdə böyük uğurlar qazanan, fədakarlıq göstərən gəncləri təltif etməsi gənc nəslin bütün nümayəndələrini daha böyük nailiyyətlər əldə etməyə həvəsləndirməklə yanaşı, onlara əsl bayram sevinci yaşatdı.

Bu mühüm tədbirdən sonra Azərbaycan Ordusu gənclərinin də ümumrespublika toplantısı keçirildi. Ordu gəncləri Prezidentimizə, Vətənimizə, xalqımıza, dövlətimizə sədaqətini bəyan etdiklərini qəti şəkildə bildirdilər.

Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 9-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu.

Bu gün hər birimiz fəxr edirik ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı və qələbə əzmi, xalqımızın mətanəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Azad edilən torpaqlarımızda görüləcək quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində gənclərimizin də iştirakı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan gənclərinin ölkə həyatında yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə bağlılığı onların bu prosesdə də fəal iştirak edəcəklərini deməyə ciddi əsas yaradır.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb**

2_Layout 1 13.08.2022 9:20 Page 1



## Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçıların andiçmə mərasimi keçirilib

Avqustun 6-da Daxili Qoşunların Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.





Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi and qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.



Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## HƏRBİ HİSSƏ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ İLƏ ÖNDƏDİR








Respublika Baş Prokurorluğunun, Daxili İşlər Nazirliyinin, DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin inzibati binalarının və hərbi hissənin mühafizəsini təmin edən Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin şəxsi heyəti vəzifə borclarından irəli gələn tələblərə uyğun olaraq, qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər hissə komandanlığı tərəfindən daim diqqət mərkəzindədir.

Hərbi hissə komandiri polkovnik-leytenant Vaqif Umudəliyev əldə olunan müvəffəqiyyətin arxasında yüksək döyüş hazırlığının, mehriban, sağlam kollektivin, möhkəm hərbi intizamın, eyni zamanda, məqsədyönlü fəaliyyətin dayandığını bildirdi. Qeyd etdi ki, ötən müddət ərzində Daxili Qoşunların komandanlığı tərəfindən verilən əmr, direktiv, göstəriş, habelə təlimatların tələbləri şəxsi heyət tərəfindən dərindən öyrənilib, aidiyyəti üzrə xidmət və bölmələrin qarşısında müvafiq tapşırıqlar qoyulub. Verilən hər bir tapşırığın icrasına hissə komandanlığı tərəfindən ciddi nəzarət olunur.

Onun sözlərinə görə, hərbi qulluqçular öz funksional vəzifələrinə məsuliyyətlə yanaşaraq, şəxsi nümunə göstərib və qarşıya qoyulmuş bütün tapşırıqları uğurla icra ediblər. Polkovnik-leytenant V.Umudəliyev onu da qeyd etdi ki, diqqət yetirilən əsas məsələlərdən biri şəxsi heyətdə ruh yüksəkliyinin, mənəvi-psixoloji durumun artırılması olub.

Gündəlik olaraq döyüş xidmətinə cəlb edilən hərbi qulluqçuların peşəkar hazırlığından da söz açan komandir hərbi hissənin nizam-intizamı ilə fərqlənən bölükləri arasında baş leytenant Cahid Məmmədovun komandiri olduğu mühafizə bölüyünün xidmətini xüsusilə vurğuladı.

Bölük komandiri ilə söhbət zamanı məlum oldu ki, bölük hərbi hissədə cari ildə keçirilən inspeksiya yoxlamasının nəticələrinə əsasən, 1-ci yerə layiq görülüb.

Baş leytenant C.Məmmədov qarovula təyin olunmuş şəxsi heyətin hazırlanmasında, onlarla təlimat məşğələlərinin keçirilməsində yaxından iştirak edir, eyni zamanda, bölükdə daxili qayda-qanuna və intizama riayət edilməsini ciddi nəzarətdə saxlayır.

Xidmətin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunduğunu vurğulayan komandir xidmətə nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qənaətbəxş olan hərbi qulluqçuların cəlb olunduğunu dedi. Bildirdi ki, təsdiq olunmuş plana əsasən, hərbi qulluqçulara gündəlik olaraq, döyüş hazırlığı, ictimai-siyasi hazırlıq və atəş hazırlığı üzrə məşğələlər keçirilir. Məşğələlərdə şəxsi heyətə nəzəri biliklər aşılanır. Onlarda əzmkarlıq, dözümlülük kimi keyfiyyətlər formalaşdırılır, şəxsi heyətlə fiziki hazırlıq məşğələlərinə xüsusilə önəm verilir.

Həmçinin, məşğələlərdə silahların, döyüş texnikasının qorunub saxlanılması, onlardan düzgün istifadə edilməsi, eləcə də təhlükəsizlik qaydalarına ciddi riayət olunması mütəmadi olaraq şəxsi heyətə çatdırılır.

Xidmətə cəlb edildikdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq baş leytenant Zərifə Rzaquliyeva da fərdi qaydada xidmətə cəlb olunan şəxsi heyətlə söhbət aparır.

Şəxsi heyətlə yaxından maraqlanan, onların qayğısına qalan komandir tabeliyində olan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkil olunduğunu və onların istirahəti üçün lazımi şərait yaradıldığını söylədi.

Sonda nümunəvi xidməti və sayıqlığı ilə seçilən bölüyün komandiri qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazır olduqlarını sözlərinə əlavə etdi. O, funksional vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçulardan kiçik çavuşlar İbadulla Musayev, Tural Zamməddinov, baş əsgər Emil Vəliyev və əsgər Soltan Allahverdiyevin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

## “DİNİ ZƏMİNDƏ BÖLÜCÜLÜYÜN MİLLİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ” MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair 2022-ci il üçün tədbirlər planı”na əsasən, avqustun 10-da Daxili Qoşunların 99713 saylı hərbi hissəsində “Dini zəmində bölücülüyün milli təhlükəsizliyə təsiri” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət





Komitəsinin sədr müavini Siyavuş Heydərov iştirak edib.

Hərbi hissənin şəxsi heyətinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik E.Fətəliyev mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini S.Heydərov bildirib ki, müasir dünyada dini radikalizm, onun fəsadı olan ekstremizm və terrorizm nəticəsində milyonlarla insan ya öldürülüb, ya da öz doğma vətənindən didərgin düşüb. O, təəssüflə qeyd edib ki, son zamanlar dünyada dini zəmində baş verən terrorun əksəriyyəti İslam dini pərdəsi altında gizlənən, lakin İslamla heç bir əlaqəsi olmayan terrorçu dəstələr tərəfindən həyata keçirilir.

Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən S.Heydərov söyləyib ki, bu baxımdan ölkəmiz dünya üçün bir nümunədir.

Azərbaycanda belə bir mühitin mövcud olmasında cəmiyyətdə formalaşmış dini dözümlülük, tolerantlıq və multikultural dəyərlərlə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasəti dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

S.Heydərov dini radikalizmin yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlıq və dinin insanlar arasında düzgün təbliğ olunmamasını göstərib.

Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan sədr müavini qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və şəxsi heyətə Ümummilli Lider Heydər Əliyevin həyat yolundan bəhs edən “Heydər Əliyev və azərbaycançılıq” sənədli filmi nümayiş etdirilib.

**baş leytenant Nigar Ağayeva**

## MİNAATAN BATAREYA VƏZİFƏLƏRİNİ MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR



17074 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın vəzifələri döyüş əməliyyatları zamanı bölmələri düşmən üzərinə asanlıqla irəliləməsi üçün atəş dəstəyi ilə təmin etməkdir. Düşmənin komanda-düşərgə məntəqəsini, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək də batareyanın üzərinə düşən tapşırıqlardandır. Eyni zamanda, düşmən mövqelərinin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.

Minaatan batareyanın komandiri baş leytenant Əliş Məmmədov sadalanan vəzifələrin yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olmasının vacibliyini söylədi. O, hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, şəxsi heyət mütəmadi olaraq praktiki məşğələlərə cəlb olunur. Hərbi qulluqçulara ixtisas hazırlığı məşğələsində “batareya hücumda” və “batareya müdafiədə” mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən, təhlükəsizlik qaydaları öyrədilir.

Batareya komandiri şəxsi heyətin təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, eləcə də hərbi intizama ciddi riayət etdiyini xüsusi olaraq vurğuladı. O bildirdi ki, batareyanın şəxsi heyəti cari ilin may ayının 10-dan 14-dək keçirilmiş döyüş atışlı taktiki təlimlərdə yüksək peşəkarlıq və əzmkarlıq nümayiş etdirərək qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirib. Əlavə etdi ki, komandiri olduğu batareya istənilən zaman qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək üçün daim döyüş hazırlığını yüksəldir.

Baş leytenant Ə.Məmmədov funksional vəzifələrinin öhdəsindən layiqincə gələn batareya komandirinin müavini-batareyanın baş zabiti leytenant Tural Əliyevin və batareya komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Razim Allahverdiyevin məşğələlərin keyfiyyətli şəkildə təşkil olunmasında, şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsində zəhmətini diqqətə çatdırdı, onların tabeliklərindəki hərbi qulluqçulara nümunə olduqlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 13.08.2022 15:47 Page 1



*Şəhidlərimiz*

# “MƏNİ XATIRLAYIB AĞLAMA, ANA!”

**Axtarıb gözlərin tapmayan zaman,**
**Məni xatırlayıb ağlama, ana!**
**Payızda yağışlar yağdığı zaman,**
**Məni xatırlayıb ağlama, ana!**

İnsanın qəlbini göynədən bu misralar 44 günlük Vətən müharibəsi zamanı şəhadətə yüksəlmiş Tərlanın cib dəftərçəsində yazdığı və ailəsinə ünvanladığı şeirdən bir parçadır. Şəhid atası Gölişad Eyniyevin qeyd etdiyi kimi, Tərlan bu şeiri cəbhə bölgəsində olarkən, hələ döyüş əməliyyatlarına qatılmazdan öncə qələmə alıb. Cəsur döyüşçümüz müqəddəs amal uğrunda qəhrəmancasına şəhid olduqdan sonra ailə üzvləri ona məxsus əşya torbasındakı şəxsi əşyalarını təhvil aldıqları gün bu şeirlə tanış olublar.

Beləliklə, “Şəhidlərimiz” rubrikasının budəfəki qəhrəmanı son damla qanınadək vuruşaraq ölümsüzlük zirvəsinə yüksəlmiş çavuş Eyniyev Tərlan Gölişad oğludur.

Çavuş Tərlan Eyniyev 1993-cü il yanvarın 22-də Yardımlı rayonunun Zövün kəndində anadan olub. Gölişad Eyniyevin və Əzizə Ələsgərovanın böyüdüb tərbiyə etdiyi altı övladdan (Vüsal, Samir, Tərlan, Şəbnəm, Ulduz və Sona) biri idi.

Tərlan orta təhsilini Zövün kənd tam orta məktəbində alıb. Ailəsinin verdiyi məlumata görə, hələ orta məktəbdə oxuyarkən olduqca tərbiyəli, böyük-kiçik yeri bilən, eyni zamanda, inanclı bir insan olub. Vətənpərvər ruhda böyüyüb tərbiyə alan Tərlan hələ uşaq yaşlarından idmana və hərbçi peşəsinə böyük maraq göstərib. İdmanın karate növü ilə məşğul olub, respublika birinciliyi üzrə keçirilən bir çox yarışda yüksək nəticələr göstərib, müxtəlif dərəcəli diplom və medallarla təltif edilib.

2011-ci ilin yanvar ayında Tərlan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yardımlı Rayon Bölməsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2012-ci ilin iyul ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 və 16075 saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların sıralarında qalaraq, hərbi xidmətini davam etdirməyə qərar verib. Beləliklə, 2012-ci ilin iyul ayında 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2016-cı ilin may ayından isə 16077 saylı hərbi hissənin “Vaşaq” şərti adını daşıyan xüsusi təyinatlı



dəstəsinin xüsusi həmlə qrupunda heyət nəfəri, atıcı vəzifələrində xidmət edib.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Əfqan Zaxmayevin sözlərinə görə, Tərlan onun ən yaxın dostu olub. 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində birgə xidmət etdikləri dövrdə subay hərbi qulluqçular üçün inşa edilmiş yataqxanada dörd il otaq yoldaşı olublar. Tərlanın hərbi hissəyə gəldiyi gündən nizam-intizamı, səliqə-sahmanı ilə seçilən hərbi qulluqçu olduğunu, keçirilən təlimlərdə hər zaman fərqləndiyini, məhz bu səbəbdən də dəstənin komandanlığı tərəfindən dəfələrlə kollektivə yeni daxil olan yoldaşlarına nümunə göstərildiyini bildirdi.

16077 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri baş çavuş Rizvan Məhərov diqqətə çatdırdı ki, vaxtilə birgə xidmət etdiyi cəsur silahdaşının vətənpərvərliyi, yüksək döyüş ruhu və nümunəvi xidməti sıralarımızda xidmət edən gənclər üçün bu gün də örnəkdir.

2019-cu ilin yanvar ayından etibarən qoşunların 67987 saylı hərbi hissəsinin “Kobra” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda atıcı vəzifəsində xidmətini davam etdirən Tərlan yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə hər zaman fərqlənib, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

44 günlük Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş T.Eyniyev silahdaşları ilə birgə Füzuli və Cəbrayıl rayonlarının bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Vətən müharibəsi zamanı Tərlanla eyni qrupun tərkibində vuruşmuş 16075 və 67987 saylı hərbi hissələrin sabiq xüsusi təyinatlıları - ehtiyatda olan çavuşlar Rasim Hacıyev (Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində yaralanıb) və Çingiz Qədimovun (Cəbrayıl istiqamətində yaralanıb) söylədiklərindən də məlum olur ki, gözünü belə qırpmadan intiqam hissi ilə döyüş meydanına atılan igid silahdaşımız düşmənin xeyli sayda canlı qüvvəsini məhv etməklə əsl qəhrəmanlıq nümunələri göstərib.

**5 oktyabr 2020-ci il.** Cəbrayıl istiqamətində gedən döyüş Tərlanın son döyüşü oldu. Bu barədə xatirələrini bizimlə bölüşən qazimiz çavuş R.Hacıyev tərkibində Tərlanın da olduğu qrupun şəxsi heyəti tərəfindən qarşıya qoyulan bütün döyüş tapşırıqlarının uğurla yerinə yetirildiyini dedi: “Tərlanı hələ 2014-cü ildən, 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət etdiyimiz dövrdən tanıyırdım. Qismət elə gətirdi ki, Vətən müharibəsinin ilk günündən Tərlanla eyni qrupun tərkibində döyüş əməliyyatlarında iştirak etdik. Cəsur döyüşçü, eyni zamanda, dostluqda və yoldaşlıqda olduqca dürüst bir insan idi. Tərlan əsl vətənpərvər, hərbçi şərəfini hər zaman qoruyub saxlayan xüsusi təyinatlı olduğunu döyüş meydanında göstərdi.

Oktyabrın 4-dən 5-nə keçən gecə Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə ermənilərin Cəbrayıl istiqamətindəki yüksəkliklərdə yerləşən postlarına hücum etdik. Bir neçə mühüm postu ələ keçirdik. Məğlubiyyətlə barışmaq istəməyən düşmən azad etdiyimiz mövqeləri müxtəlif növ silahlardan və artilleriyadan atəşə tutmağa başladı. Heç bir qorxu hissi olmayan Tərlan bu döyüşdə öz sərrast atəşilə ermənilərin xeyli sayda canlı qüvvəsini məhv etdi. Lakin şiddətli döyüşün gedişində aldıqları ağır güllə və qəlpə yaralarından cəsur hərbi qulluqçularımız - çavuşlar Tərlan Eyniyev, Abas Şahbazov, eləcə də Müdafiə Nazirliyinin adlarını xatırlamadığım xüsusi təyinatlılarından iki nəfər silahdaşımız qəhrəmancasına şəhid oldu. Bundan əlavə, bu döyüşdə qrupumuzdan 4 nəfəri Daxili Qoşunlardan olmaqla, ümumilikdə, 16 nəfər xüsusi təyinatlımız yaralandı”.



Ailəsinin bildirdiyinə görə, çavuş Tərlan Eyniyev öz vəsiyyətinə əsasən, 2020-ci il oktyabrın 7-də Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsindəki Mirmöhsün Ağa Ziyarətgahında dəfn olunub. Subay idi. Ölümündən doqquz ay öncə nişanlanmışdı. Tərlan müharibədən sonra toy edib ailə həyatı qurmağı düşünürdü...

İmişli regional “ASAN xidmət” mərkəzi tərəfindən verilmiş 7 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 6-da Füzulidə hərbi əməliyyat nəticəsində həlak olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Eyniyev Tərlan Gölişad oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhid silahdaşımızın bir zamanlar Bakının Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Yeni Bağlar yaşayış massivində inşa etdirdiyi yeni evdə şəkilləri və şəxsi əşyalarından ibarət xatirə guşəsi yaradılıb.

Tərlanın ailə üzvlərinin və onunla birgə döyüşlərdə iştirak etmiş hərbçi yoldaşlarının xatirələri əsasında AzTV və ARB televiziya kanalları, eləcə də bir sıra internet saytları tərəfindən şəhid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Şəhidin qardaşı, Vətən müharibəsi iştirakçısı çavuş Vüsal Eyniyev 99713 saylı hərbi hissənin “Şahin” xüsusi təyinatlı dəstəsinin nümunəvi hərbi qulluqçusudur. Vəzifə borclarını şərəflə yerinə yetirən Vüsal “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

**“Allah şəhidlərimizə rəhmət eləsin! Şəhidlər Allahın ən sevimli bəndələridir! Şəhidlərimiz alnımızdakı qara ləkəni öz qanları ilə təmizlədilər.**

**Bəli, şəhidlərimizin fədakarlığı, şücaəti, qəhrəmanlığı bizə keçmişimizi bir daha xatırladır. Vətən müharibəsində şəhidlərimizin şərəfli döyüş yolu gələcək nəsillərimizə bir örnək oldu”**.

Bu fikirlər şəhidimizin atası Gölişad İsmayıloğlunun (Eyniyev) Vətən uğrunda canından keçən övladına həsr etdiyi və müəllifi olduğu, 2021-ci ildə Bakıda nəşr olunan “Hərb sənətində psixoloji ruh” adlı ilk kitabındandır. Kitabda Tərlanın həyat və döyüş yolundan bəhs edən geniş və maraqlı məlumatlar dərc olunub.

Yazımı Vətən Müharibəsi Qəhrəmanı, bir zamanlar “Kobra” xüsusi təyinatlı dəstəsinin komandiri olmuş polkovnik Füzuli İmrəliyevin bu kitabda yer alan ürək sözləri ilə bitirmək istəyirəm: “Şəhid qardaşımız, sən bizim və bütün xalqımızın qəlbində, yaddaşında daim yaşayacaqsan. Əvəzolunmaz hərbi qulluqçu, əvəzolunmaz qardaşımız, əvəzolunmaz döyüşçü”.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# MƏCBURİ KÖÇKÜNLÜKDƏN DÖYÜŞÇÜ MƏQAMINA APARAN SINAQ YOLU

Ehtiyatda olan çavuş Əliyev Fəxri Rəşid oğlu ön cəbhədən qazi olaraq geri qayıdıb. O, 1995-ci il aprelin 18-də Ağcabədi rayonunun ərazisindəki Taxtakörpü qəsəbəsi, Alxaslı obasında doğulub. Əslən Laçın rayonunun Alxaslı kəndindəndir. Əliyevlər ailəsi digər yurddaşları kimi 1992-ci il mayın 17-də doğma torpaqdan məcburi köçkün düşüb. Həmin vaxtdan Ağcabədi rayonunda məskunlaşıblar.

Rəşid Əliyev və Şamama Əliyevanın üç övladından yaşca ən kiçiyi olan Fəxrinin bir qardaşı və bir bacısı var. Məcburi köçkün həyatının çətinlikləri içində boya-başa çatıb. Valideynlərinin Laçın haqqında söhbətlərini maraqla dinləyib, doğma yurduna aid videolara, fotolara həsrətlə baxıb.

Fəxri şəhid Polad Bəylərov adına Alxaslı kənd tam orta məktəbini bitirib. Orta məktəbdən sonra təsərrüfat işləri ilə məşğul olub, ailəyə öz maddi köməyini əsirgəməyib.

2013-cü ilin aprel ayında Fəxri müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 99713 və 25032 saylı hərbi hissələrində müddətli həqiqi hərbi xidmət keçib. Vətənpərvər əqidəli gənc olaraq hərbi xidmət borcuna vicdanla yanaşıb. 25032 saylı hərbi hissədə 3 ay müddətinə kiçik komandirlərin hazırlığı kursuna cəlb olunub. Kursu bitirdikdən sonra kiçik komandirlər hazırlayan tədris bölüyündə taqım komandirinin müavini vəzifəsinə təyin edilib. Taqım komandirinin müavini kimi funksional vəzifələrini məsuliyyətlə yerinə yetirib.

2014-cü ilin oktyabr ayında Fəxri öz müraciəti əsasında müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Hərbçi peşəsinə rəğbəti və marağı belə bir qərar qəbul etməsində vacib rol oynayıb. 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi, atıcı-qumbaraatan vəzifələrində xidmət edərək komandanlığın etimadını doğruldub. Xidmətdə əldə etdiyi nailiyyətlərə görə dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb.

Ürəyi Vətən eşqi ilə döyünən, “məcburi köçkün” adının üzərindən götürüləcəyi günün arzusu ilə yaşayan Fəxri hərbçi kimi bunun yalnız döyüş meydanında vuruşmaqla mümkün olduğunu anlayaraq, həmin məqamın yetişəcəyinə inanıb və ciddi hazırlaşıb.

44 günlük Vətən müharibəsi zamanı Fəxri Füzuli, Cəbrayıl, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhərinin ətrafında döyüş yolu keçib. Komandirləri və döyüşçü yoldaşlarının qazi haqqında söylədikləri maraqlı məlumatları qeydə aldım.

16077 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri, Vətən müharibəsi iştirakçısı kapitan Ramin Rəhimov bildirdi ki, qazini 2015-ci ildən tanıyır, 12318 saylı hərbi hissədə xidmət edərkən Fəxri onun tabeliyində olub. Nəzərə çatdırdı ki, Fəxri xüsusi təyinatlılar arasında öz savadı, əzmkarlığı və vətənpərvərliyi ilə seçilib, verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirib, təlimlərdə döyüş hazırlığını artırmağa çalışıb, həm xidmətdə, həm də müharibə dövründə etibarlı silahdaş olduğu üçün ona güvənib.

Zabit məlumat verdi ki, Vətən müharibəsi başladıqda öncə 16077 saylı hərbi hissəyə ezam olunublar. Oktyabrın 15-dən etibarən isə ön cəbhəyə göndəriliblər. Qarşıya qoyulmuş döyüş tapşırıqlarına uyğun olaraq, işğaldan azad edilmiş bir sıra ərazilərin, müəyyən hərbi obyektlərin müdafiə və mühafizəsində dayanıblar, yerləşdikləri məntəqələrə düşmənin diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması üzrə fəaliyyət göstəriblər. Bununla yanaşı, erməni işğalçılarına qarşı hücum əməliyyatlarında iştirak edərək qələbənin qazanılmasına öz töhfələrini veriblər. Döyüşlərin gedişində Fəxrinin dözüm, iradə və qorxmazlıq nümayiş etdirdiyini, qətiyyəti ilə yoldaşlarını ruhlandırdığını dedi. Şuşa ətrafında döyüşlərədək müharibənin od-alovundan birgə keçiblər.

12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Bəhruz Nəcəfov qeyd



etdi ki, 2015-2020-ci illərdə onun tabeliyində olmuş Fəxri nümunəvi cəhətdən fərqlənib. Peşəkar hərbi qulluqçu kimi formalaşmaq üçün öz zəhmətini əsirgəməyib. Beynəlxalq əhəmiyyətli idman tədbirlərində, ictimai qaydanın və təhlükəsizliyin, koronavirus infeksiyası ilə bağlı karantin rejiminin təmin olunmasında ayıq-sayıqlıq göstərib, verilmiş tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Yarımqrup komandirinin sözlərinə görə, Vətən müharibəsi başladıqdan sonra 16077 saylı hərbi hissədə ehtiyat qüvvə olaraq qaldıqları müddətdə şəxsi heyətin bir hissəsi düşmənlə təmas xəttindəki rayonların ərazilərinə xidmətə cəlb olunub. Döyüş bölgəsində isə öncə Füzuli-Cəbrayıl rayonları istiqamətində müəyyən olunmuş hüdudlarda cəmləşiblər. Burada müdafiə və mühafizə tapşırıqlarını uğurla yerinə yetiriblər. Oktyabrın ortalarınadək ordumuz bu istiqamətdə xeyli irəliləyib, yaşayış məntəqələri və yüksəkliklərin bir qismi işğaldan azad edilərək nəzarətə götürülüb.

Bəhruz söylədi ki, oktyabrın 30-da Xocavənd rayonunun ərazisinə yola salınıblar. Cəmləşmə məntəqəsində onlara Şuşanın düşməndən azad olunması döyüş tapşırığı verilib. Hücum əməliyyatında iştirak edəcək qruplar formalaşdırılaraq, hərəkətə başlayıblar.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Azər Həsənov Fəxrinin döyüşçü yoldaşlarından biridir. Silahdaşını 2013-cü ildən tanıdığını söylədi. Vurğuladı ki, Fəxri həmişə yoldaşlığa dəyər verib, sözü və əməli bütövdür, xidmətə can yandıran, hərtərəfli hazırlığa malik hərbi qulluqçu olub. Xüsusi təyinatlı olaraq müxtəlif yarışlara qatılıb və öz məharəti ilə uğur qazanıb, normativləri bacarıqla yerinə yetirib.

Azər Fəxrinin Vətən müharibəsində də xüsusi təyinatlı adını doğrultduğunu bildirdi. Müharibənin bütün əziyyətlərinə dözüb, ruhdan düşməyib, öz silahı ilə təcavüzkara tutarlı atəş zərbələri endirib. Şuşaya doğru çətin keçilən dağlıq ərazi ilə irəliləyiblər. Böyük Tağlar, Çanaqçı, Sığnaq kəndlərində düşmənin müqavimətini dəf edərək, atəş nöqtələrini susdurublar. Daşaltı kəndi istiqamətində manevr edərək Şuşaya yaxınlaşıblar. Aldadıcı manevrlə erməniləri çaşqın vəziyyətə salıblar. Laçın-Şuşa yolu üzərindəki düşmən postları darmadağın edilib. Bu ərazidəki mövqelənmək üçün əlverişli yüksəkliklərdən birində ağır döyüş olub. Fəxri bu döyüşdə təcavüzkarın texnikasını sərrast atəşlə sıradan çıxarıb və canlı qüvvəsini çoxsaylı itkiyə məruz qoyub. Qazi danışdı ki, onların yerləşdikləri mövqe işğalçılar tərəfindən müxtəlif çaplı silahlardan, o cümlədən, artilleriyadan şiddətli atəşə tutulub. Noyabrın 4-də minaatan mərmisinin partlayışından əvvəlcə Azər yaralanıb. Fəxri yerdəyişmə etdikdə minaatan mərmisinin qəlpələri onu da müxtəlif nahiyələrdən yaralayıb, habelə barotravma alıb. Sağ qolunda sümük sındığından, sol qolu ilə atəş açıb. Yaralılara ilk tibbi yardım göstərilib. Şuşa ətrafında döyüşlərdə yaralıların təxliyyəsi çətinləşib. Hətta bəzi yaralıları o zonadan vaxtında çıxarmaq mümkün olmayıb.

12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkam yarımqrupunun komandiri-baş istehkamçı, Vətən müharibəsi iştirakçısı baş çavuş İlkin Rəhmanlı da müharibənin hər üzünü görüb. O söylədi ki, Fəxri üzərində həm avtomat, həm də qumbaraatan daşıyaraq, ən təhlükəli mövqelərə can atıb, qələbəmizə inamla, cəsurluqla vuruşub. Silahdaşlarına deyib ki, ya şəhid, ya da qazi olacaq. İlkin xatırladı ki, Şuşa istiqamətində hərəkət edərkən pusquya düşüblər, atəşə tutulublar, həmin vaxt Fəxri yüngül zədələnib. Bir neçə gün sonra isə ağır yaralanan Fəxrinin döyüş ruhu sarsılmayıb.

Fəxrinin mənə verdiyi məlumata görə, noyabrın 4-də yaralandıqdan sonra 3 gün piyada geriyə yol qət ediblər. Yolda bir neçə dəfə atəşə məruz qalıblar, bəzi yaralı döyüşçülər şəhid olublar.

Noyabrın 7-də Fəxri Füzuli Rayon Diaqnostika Mərkəzində cərrahi əməliyyat olunub. Növbəti gün Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına köçürülüb. Daxili Qoşunların Hərbi Qospitalında da müəyyən müddət müalicə alıb. Tibbi sənədlərdə Fəxrinin partlayış travması aldığı, baş-beyin silkələnməsinin müəyyən olunduğu, sağ mil-bilək oynağı, boynun sağ yarısı, sağ sağrı nahiyələrindən yaralandığı, bədənində çıxarılmayan metal qəlpələrin, dərisində isə bərkimiş çapıqların qaldığı, eləcə də digər fəsadlar yazılıb. III qrup əlildir.

Vətən müharibəsindən sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib. 2021-ci ilin iyul ayında Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamı ilə F.Əliyev “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif edilib.

Qazinin əmisi oğlu Nihad Əliyev Vətən müharibəsi zamanı Murovdağda şəhidlik zirvəsinə ucalıb.

Vətən müharibəsindən bir neçə ay əvvəl ailə quran Fəxrinin Rəşad adlı oğlu var. Alxaslı obasında yaşayan qazi Laçın Rayon Yaşıllaşdırma İdarəsində işləyir.

“Qürur duyuram ki, Vətən müharibəsi qazisiyəm. Xoşbəxtəm ki, elim-obam daha məcburi köçkün deyil”- deyən Fəxri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazandığımız hərbi zəfərin dövlətimizin və xalqımızın yenilməz qüdrətinin təzahürü olduğunu vurğuladı.

**Yalçın Abbasov**

4_Layout 1 15.08.2022 10:57 Page 1



# BÖLÜK DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ QORUYUB SAXLAYIR

25033 saylı hərbi hissənin patrul bölüyü yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrdən biridir.

Patrul bölüyünün komandiri kapitan Vüqar Məhərrəmov 2011-ci ilin iyul ayından Daxili Qoşunların sıralarında müxtəlif vəzifələrdə xidmət edib. 2020-ci ilin aprel ayından hazırkı vəzifədədir.





Kapitan V.Məhərrəmov şəxsi heyətin dislokasiya rayonunda cəlb olunduğu xidmətlərdən danışarkən bildirdi ki, patrul xidmətinin əsas məqsədi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, eləcə də cinayətlərin və digər hüquq pozuntularının qarşısını almaqdır. O, bölüyün ümumi fəaliyyətini müsbət qiymətləndirərək, əldə olunan uğurlarda şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək olmasını mühüm amillərdən biri kimi qeyd etdi. Bu istiqamətdə görülən işlərdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rəşad Hüseynovun fəaliyyətini vurğuladı. Onun funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşdığını, şəxsi heyətin müəyyən edilmiş vəzifələri vaxtında və keyfiyyətlə icra etməsi, həmçinin, ictimai-siyasi biliyinin və dünyagörüşünün artırılması üçün səylə çalışdığını bildirdi.

Komandir müavini bölmənin şəxsi heyətinin yerinə yetirdiyi xidmətin məsuliyyəti barədə danışarkən söylədi ki, xidmətə cəlb olunduqdan öncə hərbi qulluqçularla söhbətlər aparılır, onlar təlimatlandırılır, sağlamlıq və mənəvi-psixoloji durumları, o cümlədən, zahiri görünüşləri, hər birinin səliqə-sahmanı yoxlanılır. Yerinə yetirəcəkləri xidmətin məsuliyyəti bir daha izah olunur. Sonra şəxsi heyət təyinatına uyğun olaraq, xidmətə başlayır.

Bölüyün şəxsi heyəti həvalə olunmuş tapşırıqları uğurla icra edir. Bu da onların bilik və bacarıqlarının yüksək səviyyədə olmasından və daim öz üzərilərində çalışmalarından xəbər verir. Komandir bölmədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətlə tədrisinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi.

Kapitan V.Məhərrəmov nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçulardan kiçik çavuşlar Məmmədtağı Aslanov, Əli Əliyev, çavuş Rəsul Bayramov, baş əsgərlər Xəyal Hacıyev və Məhəmməd Məmmədlinin adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

*idman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİLİYİ QAZANIB



Daxili işlər nazirinin müvafiq əmrinə əsasən, iyulun 29-da daxili işlər orqan və hissələri arasında silahsız özünümüdafiə üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Daxili Qoşunların yığma komandası yarışda 8 nəfər idmançı və 1 nəfər nümayəndə ilə təmsil olunub. Yarışın proqramına uyğun olaraq, silahsız özünümüdafiə üzrə fərdi birincilikdə nəticələr aşağıdakı kimi olub:

99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yaqub Tapdıqzadə, MAXE çavuş Təbriz Məmmədov, MAXE çavuş Taleh Nəbiyev I yerə, 99713 saylı hərbi hissədən MAXE çavuş Amir Muradxanov, MAXE çavuş Şıxəli Məmmədov və 16075 saylı hərbi hissədən MAXE çavuş Xəyal Vəliyev isə II yerə layiq görülüblər.

Daxili Qoşunların yığma komandası yarışda 14 komanda arasında I yeri qazanıb.

Yarışda uğur qazanan hərbi qulluqçular Daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının müvafiq əmri ilə mükafatlandırılıblar.

**Mətbuat xidməti**

# TƏCRÜBƏLİ VƏ CƏSUR İSTEHKAMÇI

17074 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur. İstehkamçı yarımqrupun əsas vəzifələri təhkim edilmiş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - mərmilərin, partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, habelə meşəlik-dağlıq ərazilərdə dəstənin öncü qismində yollarının





açılması, şəxsi heyətin təhlükəsiz irəliləməsidir. Eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarışlar aparılaraq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi də istehkamçı yarımqrupun qarşısında duran tapşırıqlardandır.

Xüsusi təyinatlı dəstənin istehkam yarımqrupunda istehkamçı çavuş Vüsal Rəhimov 1989-cu ilin aprel ayının 18-də Gəncə şəhərində doğulub. Böyüyüb boya-başa çatdığı doğma şəhərində 16 nömrəli tam orta məktəbin 11-ci sinfini 2005-ci ildə bitirib. 2005-2007-ci illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə təyin olunub. Özünü intizamlı hərbi qulluqçu kimi göstərməyi bacaran çavuş V.Rəhimov 2017-ci ildə xüsusi təyinatlı dəstəyə keçmək üçün təyin olunmuş imtahanlarda uğurla iştirak edərək hazırkı vəzifəyə təyin edilib. O, 2018-ci ildə Göygöl rayonunda ANAMA tərəfindən təşkil edilmiş təlimdə iştirak edərək öz peşə hazırlığını təkmilləşdirib. Çavuş V.Rəhimov Vətən müharibəsi iştirakçısıdır, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib. Xüsusi təyinatlı dəstənin komandiri mayor Sahib İbrahimov tərəfindən müsbət xarakterizə olunur.

Dəstə komandiri mayor S.İbrahimov istehkam yarımqrupunun şəxsi heyəti ilə ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması, şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar minaaxtaran cihazlarla işləmə qaydasının öyrədilməsi və başqa mövzularda keçirilən ixtisas hazırlığı məşğələlərində çavuş V.Rəhimovun daim fəallıq nümayiş etdirməklə öz peşə hazırlığını artırdığını bildirdi. Bundan əlavə, yarımqrupun şəxsi heyəti ilə bərabər torpaqlarımız işğaldan azad edildikdən sonra Şuşa şəhərində minatəmizləmə əməliyyatlarında istehkamçı kimi vəzifələrini ləyaqətlə yerinə yetirib.

Hərbi xidmət ənənələrinə sadiq qalan çavuş V.Rəhimov öz sahəsi üzrə yenilikləri öyrənir, qabaqcıl təcrübəyə yiyələnir. Onun fikrincə, hər bir hərbi qulluqçu hansı sahədə olmasından asılı olmayaraq, ixtisası ilə bağlı bütün yenilikləri bilməli, savadını artırmağa çalışmalıdır.

Daxili Qoşunların hərbi qulluqçusu olduğuna görə hər zaman fəxr etdiyini nəzərimizə çatdıran hərbi qulluqçumuza bundan sonrakı xidməti fəaliyyətində nailiyyətlər arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# BACARIQLI VƏ İNTİZAMLI RABİTƏÇİ

17074 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımında xətt nəzarətçisi əsgər Kamran Eyvazlı 2002-ci il dekabr ayının 29-da Bakı şəhərində anadan olub. 2020-ci ildə Yasamal rayonunda yerləşən 158 saylı tam orta məktəbi bitirib. 2021-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub. 25032 saylı hərbi hissədə kiçik mütəxəssislər hazırlayan tədris bölüyündə kurs keçib.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir. Normativ sənədlərdə tələb edilən keyfiyyətdə, fasiləsiz və dayanıqlı rabitə əlaqəsini, rabitə vasitələrinin sazlığını və təmirini, aparatların və istismarda olan rabitə kabellərinin texniki normada olmasını təmin etmək əsgər K.Eyvazlının funksional vəzifələridir. O, məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir, rabitə döyüş postunda daxili səliqə-sahmanı qoruyub saxlayır.

Bundan əlavə, rabitə vasitələrinin döyüşə hər zaman hazır vəziyyətdə saxlanılmasına, texniki istismarı üzrə tədbirlərin təşkili və keçirilməsinə cavabdehdir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər K.Eyvazlı hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı, bölmədə rabitəçilərin hazırlığına diqqətin artırıldığını söylədi.

**kapitan Şahin Cəfərzadə**

# QAZANXANANIN FƏALİYYƏTİNDƏ TƏHLÜKƏSİZLİK QAYDALARINA CİDDİ RİAYƏT OLUNUR

Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin qazanxanası gündəlik olaraq xidmətini təhlükəsizlik qaydaları üzrə müvafiq təlimatların tələblərinə əsasən təşkil edir. Qazanxana, qazanlar və digər avadanlıqların hər zaman saz vəziyyətdə, təmiz və səliqəli şəkildə saxlanılması təmin olunur.



Təminat bölüyünün təminat taqımında qazanxana rəisi baş çavuş Əli Qüdrətov 2016-cı ilin oktyabr ayından 25033 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. 2018-ci ilin aprel ayından hazırkı vəzifədədir. İntizamlı, vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə olunur.

Qazanxana rəisi olaraq qurğuların, avadanlıqların düzgün texniki istismarına, yanacaq materiallarının uçotunun aparılmasına, həmçinin, qazanxanada yanğından mühafizə tədbirlərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. Nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçumuz hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Baş çavuş Ə.Qüdrətov qeyd etdi ki, qazanlar işə salınmazdan öncə onların və digər avadanlıqların işlək vəziyyətdə olması diqqətlə yoxlanılır. Yalnız qazanxana rəisinin göstərişindən sonra qazanlar və qurğular işə salınır. Qazanxana qurğularına xidmət etmək üçün təlimatın tələblərinə əməl olunur.

Qazanxanada müəyyən nasazlıqlar yarandıqda və qazanın yanma kamerasının qaz yollarında hər hansı bir iş görülərkən təhlükəsizlik qaydalarına ciddi riayət edilir. Bu zaman qazanxanada temperaturun 50-60 dərəcədən artıq olmamasına xüsusi diqqət yetirilir.

Bundan əlavə, qazanxananın içini kənar əşyalarla doldurmaq və ya orada hər hansı material və ya əşyaların saxlanılması, eləcə də qazanxanaya kənar şəxslərin daxil olması qadağan olunur.

O, görülən işlərdə mülki işçi operatorlar Samir Rəhmanzadənin, Hafiz Quliyevin və Zaur Rəcəbovun zəhmətini yüksək qiymətləndirdi. Onların vəzifələrinin məsuliyyətini dərindən dərk edərək, qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə icra etdiklərini bildirdi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

### Cənubi Koreya KF-21 qırıcısının ilk uçuş sınağını keçirib



Cənubi Koreyanın “Korea Aerospace Industries” şirkəti tərəfindən stels texnologiyası əsasında yaradılan 4-cü nəsil KF-21 döyüş təyyarəsinin ilk uçuş sınaqları keçirilib. “Poliqon” xəbər verir ki, istehsalçı şirkət ilə ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) birgə keçirdiyi uçuş sınaqları uğurla tamamlanıb.

İstehsalçı şirkət 2026-cı ilin iyun ayına qədər KF-21 döyüş təyyarəsinin altı prototiplə təxminən 2000 sınaq uçuşunu həyata keçirməyi, ardınca isə həmin il kütləvi istehsal etməyi planlaşdırıb.

### Polşa ABŞ-dan 116 ədəd M1A1 “Abrams” tankı alır

Polşa Müdafiə Nazirliyi ABŞ-a 116 ədəd M1A1 “Abrams” əsas döyüş tankı sifariş edib. “Poliqon” xəbər verir ki, bu barədə Polşanın müdafiə naziri Mariuş Blaşak bildirib.



Qeyd edək ki, bundan əvvəl, 2022-ci il aprelin 5-də Polşanın müdafiə naziri Polşa ilə ABŞ arasında 250 ədəd “Abrams” M1A2 SEPv3 tankının alqı-satqısına dair 4,75 milyard ABŞ dolları dəyərində saziş bağlandığını demişdi.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan polkovnik Bəxtiyar Abdullayevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan polkovnik-leytenant Aqil Umbatovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**

Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**

**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**